Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Elmi Şurasının
29 dekabr 2022-ci il tarixli iclasının
(protokol № 3 ) qərarı ilə təsdiq edilmişdir.
Rektor: ______________ C.M.Cəfərov

## ADPU-da İşçilərin mükafatlandırılması haqqında

## ƏSASNAMƏ

Əsasnamə işçilərin öz vəzifələrini vicdanla yerinə yetirilməsi, işdə fərqlənən işçilərin mükafatlandırılması, professor-müəllim və inzibati heyətin əmək fəaliyyətini stimullaşdırmaq, sosial müdafiəsini gücləndirmək məqsədi ilə qəbul edilir. İşçilərin mükafatlandırılması haqqında Əsasnamə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 154, 157, 158, 185 maddələrinə və ADPU-nun Nizamnaməsinin 4.11.12. bəndinə əsaslanır.

**1.** Əsasnamə əsasında ödənilən mükafatlar pul şəklində ödənilir.

**2.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 157.6 maddəsinə əsasən:

Mükafat — əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsinə işçinin maddi marağının artırılması məqsədi ilə əmək haqqı sistemində nəzərdə tutulan qaydada və formada verilən həvəsləndirici pul vəsaitidir.

**3.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 157.2-ci maddəsinə görə, işəgötürən əmək müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməsində, ictimai əsaslarla göstərilən fəaliyyət, istehsalın səmərəliliyinin və işin keyfiyyətinin artırılmasında işçilərin maddi marağını gücləndirmək məqsədi ilə mükafatlandırma, o cümlədən il ərzində işin yekunlarına görə mükafat və maddi həvəsləndirmənin müxtəlif formalarını tətbiq edə bilər.

**4.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 185-ci maddəsinə görə əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, müəssisədaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilərə işəgötürən tərəfindən pul və ya qiymətli əşyalar hədiyyə edilə bilər. Bundan başqa, ADPU bayramlarda, əlamətdar günlərdə (bayramların adı qeyd olunumaqla) işçilərin ad günlərində, yübileylərində və s. hallarda işçilərə pul şəklində mükafatlar, və ya qiymətli əşyalar hədiyyə edilə bilər.

**5.** Birdəfəlik mükafatların kimə, hansı məbləğdə və hansı formada verilməsi, müvafiq struktur rəhbərləri tərəfindən verilmiş təqdimatı nəzərə alaraq, ADPU-nun Elmi Şurasının qərarına əsasən, rektorunun əmri ilə yaradılmış Maliyə komissiyası tərəfindən müəyyən edilərək, rektora protokol formasında təqdim edilir. Maliyə komissiyasının protokolu təklif xarakteri daşıyır. Mükafatlandırma ADPU rektorunun əmri əsasında həyata keçirilir.

**6.** Altı (6) ay ərzində aşağıdakı şərtləri pozmuş işçilər mükafatlandırılmır:

- vəzifə təlimatlarında qeyd edilən vəzifələrin (əmək funksiyasının) yerinə yetirilməməsi və aşağı səviyyədə yerinə yetirilməsi;
- işəgötürənin əmr və tapşırıqlarının yerinə yetirilməməsi;
- subrodinasiya və etik qaydalara riayət edilməməsi;
- təhlükəsizlik və əməyin mühafizəsi qaydalarının pozulması;
- intizam tənbehinin verilməsi ilə nəticələnən pozuntular (töhmət, şiddətli töhmət və s.)

**7.** Bu Əsasnamənin 6-cı bəndində qeyd edilən pozuntulara görə, hər hansı qaydanın pozulmasına görə verilmiş intizam tənbehinin, İntizam Komissiyası tərəfindən təklif edilərək, rektorun əmri ilə təsdiq edildiyi tarixdən etibarən, altı (6) ay ərzində mükafat verilmir.

Hazırkı Əsasnamə dəyişilənə qədər qüvvədə qalır.